Yaddaşlarda yaşayanlar

# Şirməmməd Hüseynov hazırcavablığı



**Bakı Dövlət Universitetində oxumadığıma görə, Şirməmməd müəllim mənə dərs deməmişdi. Ancaq çox görüşmüşdük. Bəlkə də onunla hər görüş ayrıca bir yazının mövzusu olurdu. Qəzetimizin "Yaddaşlarda yaşayanlar" rubrikası üçün görkəmli alim və müəllimin şahidi olduğum hazırcavablığı barədə bir neçə faktı qələmə alıram.**

## Adını dəyişmə, cavan oğlan…

Baş redaktorumuz Nahid Hacızadə Məmməd Əmin Rəsulzadə haqqında roman yazırdı. Bəzi tarixi məqamlarda səhvə yol verməmək üçün tez-tez Şirməmməd müəllimlə zəngləşirdi. Onlar gah universitetdə, gah da "Dalğa" qəzetinin redaksiyasında görüşürdülər. Redaksiyamız Respublika "Bilik" Cəmiyyətinin binasında yerləşdiyinə görə oraya alimlər, ziyalılar gəlirdilər.

Bir dəfə alimlərdən biri Şirməmməd müəllimin yanında mənə dedi ki, sən get, adını dəyişdir, bu gün-sabah Sovet İttifaqı yox olacaq. Mən cavab verə bilmədim. Şirməmməd müəllim həmin alimdən soruşdu ki, sənin adın nədir? Dedi: Namaz.

Şirməmməd müəllim dedi: – Mən Namaz adında o qədər kafir, namərd, alçaq adam tanıyıram ki… Həmin yaramazlara görə sən adını dəyişməlisən?

Sonra mənə dedi: – Adını dəyişmə, cavan oğlan.

## O da sənin kimi biqafıl bir iş görüb

Görkəmli jurnalist Ələkbər Abbasov müstəqillik illərində Şəhrili təxəllüsünü götürmüşdü. Şirməmməd müəllim bunu yaxşı qarşılamırdı. Redaksiyamıza gələn elmiyazıların hamısını Ələkbər müəllim oxuyub çapa hazırladığına görə Şirməmməd müəllimin bütün yazılarını az, qala, əzbər bilirdi.

Bir dəfə Ələkbər Abbasov Şirməmməd Hüseynova dedi ki, müəllim, sizin ötən həftəki yazınızda filan müəllifin (Xalq Cümhuriyyəti dövrü qələm sahiblərindən hansınınsa) ad-soyadı başqa cür idi, indi başqa formada yazmısınız, bu necə olur?

Ustad qayıtdı: – O da sənin biqafıl Şəhrili olduğun kimi bir şeydir.

## Sən də bayaqdan fikirləşirsən…

Rəhmətlik Aydın Məmmədovla Dilarə Əliyevanın qəzaya düşdüyü günlər idi. O vaxtlar əsas küçələrdə qəzetlər xüsusi lövhələrə yapışdırılırdı. Təsadüfən Tofiq Bayram da həmin gün rəhmətə getmişdi. Yan-yana olan "Kommunist" və "Sovet kəndi" qəzetlərində hər üçünün fotoları və başsağlıqları verilmişdi.

Mən küçədə həmin materialları oxuyurdum. Bir də gördüm Şirməmməd müəllim papka qoltuğunda yanımdadır. Məni görən kimi soruşdu ki, hələ burdasan? Elə bil, həmin gün dörd-beş dəfə görüşmüşdük. Halbuki, bir həftədən çox idi, redaksiyamıza gəlmirdi.

Bu məqamda daha iki nəfər qəzet lövhəsinin qarşısında dayandı. Biri o birinə dedi: – Aya, bə deyerdilər ikisi ölüf, bə üçdülər ki…

O biri qayıtdı: –Bəlkə o da onnarın şoferidir?

Şirməmməd müəllim sırf Şəki təbəssümü ilə mənə baxaraq dedi:– Sən də bayaqdan fikirləşisən ki, üçüncü adam kimdir. Gördün, bu yoldaş gələn kimi tapdı.

## Ağıllanmaq başqadır, ağ unlanmaq başqa

Rəhmətlik Hidayət Səfərli Teleradio Şirkətinin həyətində tanıdığı qonağı görən kimi deyirdi ki, əlini cibinə sal, sonra mənimlə görüş, uşaq göndərim iki ağ şüşə alıb gətirsin. Yəni bizə qonaqlıq ver. Şirməmməd müəllimə bunu dəfələrlə deyibmiş. O da həmişə deyibmiş ki, ağıllan.

Ona görə də bir dəfə Şirməmməd müəllimi görən Hidayət Səfərli ucadan dedi: – Ağıllanmışam.

Ustad həmsöhbətinin saçının dümağ olmasına işarə edərək dedi:

–Ağıllanmaq başqadır, ağ unlanmaq başqa.

## Bu kitabda, həqiqətən də, yenilik var

"Bilik" Cəmiyyətində tez-tez görünən cavan müəlliflərdən biri Şirməmməd müəllimə yaxınlaşaraq, şəstlə dedi:– Müəllim, keçən həftə sizə yeni kitabımı göndərmişdim. Fikrinizi bilmək istəyirəm.

Ustad gülümsündü: – O kitabda həqiqətən yenilik var.

Bu ifadəni eşidən oğlan dahada lovğa görkəm alanda müəllim əlavə etdi:– Adi kitablarda səhifə göstəriciləri ya vərəqin yuxarısında olur, ya da aşağısında. Sənin kitabında isə həmin göstərici vərəqin ortasının kənarında yerləşdirilib…

## Maşallah, zəngin arxivin var…

Bir dəfə Nahid müəllim dedi ki, İttifaq, sənə Neft və Kimya İnstitutunun rektorunun telefon nömrəsini vermişdim. Həmin nömrəni Şirməmməd müəllimə ver. Baş üstə, deyib pencəyin sol cibindəki çoxsaylı xırda kağızlara baxdım. Nömrə yox idi. Sağ cibimdəki kağızlar ondan da çox olsa da, orada da nömrə yox idi.

Pencəyin üst cibindəki kağızları çıxarıb stolun üstünə tökəndə Şirməmməd müəllim dedi:

– Maşallah, çox zəngin arxivin var.

***İttifaq QAÇAYEV,***
***"Xalq qəzeti"***